# Bir gözdəki tükün qüdrəti

*(yarızarafat, yarıciddi)*

***Yanvarın 8-də doğum gününü qeyd edən yazıçı, şair, publisist Zaur Ustac "Gözündə tük var" novellasında keçən yüzilliyin, eləcə də bugünümüzün reallıqlarını, həqiqətlərini, elm sahəsindəki uğurlarını, alimlərin telepatiyasını, "uzaqgörənliyini" "Qəribə dünya" TV-nin "Onun həyat yolu" proqramının izləyicilərinə "Gözündə tük var" kooperasiyasının prezidenti Hacı Fağır Naxırçıyevin (müəllif adları çox uğurlu seçib) dili ilə nağıl edir. Ona görə "nağıl edir" deyirəm ki, novella nağıl dili kimi yüyrək və axıcı qələmə alınıb. Yumor, satira və sarkazm bir-biriylə qolboyun olub çox mətləblərə işıq salır.***

## ədib

Hacı Fağırın (onu çox fağır hesab etməyin) ömür-gün yoldaşı dözülməz şəraitə - iki uşaqlı ailənin yataqxanada yarıac, yarıtox yaşamasına dözməyərək, uşaqları ərinin üstünə atıb Türkiyəyə gedir ki, qardaş ölkənin elmini "çiçəkləndirsin". Hacı Fağır "Elçibəy binası" adlı məşhur yataqxanada iki qızını böyüdür.

Qızlar indi Almaniyada yaşayırlar. Bunu bu günün acı gerçəkliyi kimi nağıl etməyimi qüsur saymayın. Çünki indi elm adamlarının yaşam şəraiti keçən əsrin 80-90-cı illərindəkindən heç də yaxşı deyil. Ona görə düşüncələrimi felin indiki zamanında yazıram. Klassik dramaturqlarımızın dili ilə desək, hadisələr keçən əsrin və bu günün Bakısında vaqe olur. Fağır müəllim sevgisinə sadiq olub "təqaüdə çıxana qədər həmin yataqxanada subay-salıq yaşayıb". Yazıq neyləsin, o vaxtkı və indiki gözəllər elm adamını bəyənməzlər axı. Lap elm adamı Həci olsa da. Zaur müəllim bu acı həyat həqiqətlərini qaranlıqdan işığa çıxarıb bütün çılpaqlıqları özünün yox, Hacı Fağırın "cəsarət"i ilə aləmə bəyan edir:

"Bütün gün kabinetlərdə oturub vaxt öldürməklə məşğul idik. Yəqin ki, sizin də bu adətdən xəbəriniz var? Adamın gözündə tük olanda, kirpiyi üzünə, gözünün altına düşəndə bunu görən digər şəxslər ailədə, kollektivdə gözündə tük olan adama ürəyində bir arzu tut deyib, tükün hansı gözdə olmasını soruşurlar. Bununla da arzunun çin çıxacağına, niyyətin hasil olacağına inanırlar. Bizimkilər, mənim iş yoldaşlarım uzun illər bu adəti öz bildikləri kimi interpretasiya edərək arzunu özləri tutub, tükün mənim hansı gözümdə olduğunu soruşurdular. Mən də həmişə düz tapırdım. Və ən əsası onların arzuları həyata keçir, niyyətləri hasil olurdu".

Alimlərin düşünəcəsinə, tapıntısına,"kəşf"inə heyran qalmamaq olmur.

Onu da qeyd edim ki, novellanın dialoq formatlı televiziya verilişi kimi qələmə alınması oxucunu yormur, oxunaqlı edir. Hacı Fağır alimin rus dilində dediyi sözləri aparıcının tez-tələsik ana dilimizə çevirməsi, "Milyonerlər məhəlləsi", "villa" kimi "qorxulu" ifadələrin işlətməsinə qadağası, varlıların - "mərd oğulların xeyirxahlığı", TV-lərin "dəymə mənə, dəyməyim sənə" mövqeyi həmişə xarakterik hal olub. Fağır müəllim çox elmi işçiləri "xoşbəxt" etmişdi. Onun "yüksək elmli" iş yoldaşları ürəyində arzu tutub Hacıdan hansı gözündə tük olduğunu soruşanda, o da tük olan gözünü "əzbər" biləndə, iş yoldaşlarının niyyətində tutduqları çin olanda hamı xoşbəxtlik dənizində üzürdü, Fağır müəllimi "maşın, ev, ofis, hətta xaricdə adalar kimi təşəkkür hədiyyələri ilə mükafatlandırırdılar.



Bir xanımın - "bir yazığın karyera yoluna tir", ancaq yox ey, Hacının gözünün tükü düşəndə, direktor hər ikisini "qüdrətli tük sahibini və xanımı işdən azad edəndə bəxti gətirmədi, bu dəfə arzularının yolunda yaşıl işıq yanmadı. Ancaq Fağır müəllimin bəxti dəf çaldı. "Uşaqlar böyüyüb onu tərk etdiyinə görə neçə vaxt susuz dəyirmanı xatırladan o bir otağı saraya döndü. İndi o balaca otaqda həyat eşqi qaynayırdı". Onda xanım kirayə pulu olmadığından yeni iş tapana kimi Hacı ilə yaşamağa məcbur oldu. "Qoruyucu mələk, köməkçi, başının tacı", ona könül verən Bərəkət xanım Fağır müəllimi "xoşbəxt, halından məmnun etdi", Fağırı Hacı etdi.

"Hacını ilk gördüyüm gündən, - düzdü, onda hələ hacı deyildi, - onun alicənablığına, səmimiliyinə, insanlığına vurulmuşdum. Savadı, ziyalılığı da öz yerində. Subay olduğunu və tək yaşadığını bildikdən sonra isə sözün əsl mənasında istəyirdim onu... Həmin gün də tam olaraq arzum belə idi: "Ey böyük Allahım, bu kişi mənim olsun!"

Bərəkət xanım gözdəki bir tükün qüdrəti ilə bir göz qırpımında, bir baxışla arzusuna çatmışdı. Taylı tayını tapmışdı. Sən demə, yeniyetməlik vaxtından bu "müqəddəs" tük Hacının sol gözünün içində isti yuva tapıbmış, həmişə orda gözün sahibi ilə birgə yaşayırmış, "alim"ləri, Bərəkət xanımı, Hacı Fağr müəllim Naxırçıyevi xoşbəxt eləmək üçün "gözə giribmiş"...

Dünyanın qəribə işləkləri varmış...

***Vaqif Osmanlı,***
***Yazıçı-publisist, ədəbi təhlilçi***